**Hüquq məsləhətxanamız**

***Samirə Musayeva***
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir.

## Minik avtomobili üçün yol vergisi

***Xaricdən ölkəmizə daxil olan minik avtomobili ğzğn yol vergisi tutularkən onun ölkədə qalma mğddəti nəzərə alınırmı?***

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 209-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələr və qeyri-rezident fiziki şəxslər, habelə Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri olan şəxslər ölkənin avtomobil yollarından istifadəyə görə yol vergisinin ödəyiciləridir. Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin, habelə Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri vergitutma obyektidir.

Vergi Məcəlləsinin 211.1.1-ci maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin minik avtomobillərindən

15 ABŞ dolları məbləğində yol vergisi tutulur.

Məcəllənin 212.1-ci maddəsinə müvafiq olaraq, xarici dövlətlərin avtonəqliyyat vasitələrindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergini həmin avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman gömrük orqanları tuturlar və bir bank günü ərzində dövlət büdcəsinə keçirirlər.

Qeyd etməyi zəruri hesab edirik ki, Məcəllənin 211.1.1.2 və 211.1.1.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisinə daxil olan avtobuslar, yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri üçün yol vergisi Azərbaycan Respublikasının ərazisində qaldığı müddətdən asılı olaraq hesablandığı halda, minik avtomobilləri üçün yol vergisi tutularkən onların ölkə ərazisində qalma müddəti nəzərə alınmır.